**Azərbaycan Respublikasının**
**Belçika Krallığındakı Səfirliyi**

Haradan: SBRS

Haraya: MİƏİ

Surəti: Aİ üzv ölkələrindəki Səfirliklərə, KİST, STFL, SKŞN, SMSK, SBQR, SANK, SKYV

Çıxış nömrəsi: SBRS/ 778 /15

Tarix: 10 / 12 /15

Sənəd necə göndərilir: Elektron poçt

Səfirliyin ........................N-li məktubuna istinad

Səhifələrin sayı: 1+ 3

Əlavə olunur

Məhdudluq qrifi: Adi

Təciliiliyi: Adi

Vacibliyi: Vacib

Əvvəlki müraciətlər:

XİN-in .................... N-li məktubuna cavab
..................................................tarixinə qədər cavab verilməlidir

Məruzə üçün: Nazirə,
Nazir müavini: M.Məmməd-Quliyevə

Məlumat verilməsi üçün: AR İqtisadiyyat və Sənaye Nazirliyinə

**Məsələyə dair:** *Brüssel şəhərində keçirilmiş QDİƏT – COEST qeyri-rəsmi iclasına dair*

Səfir: Fuad İsgəndərov

İcraçı: Anar Şükürov

Mərkəzin S/32 – 32396/02/15 saylı 25.11.15 tarixli təlimatına istinadən nəzərinizə çatdırırıq ki, 4 dekabr 2015-ci il tarixində Brüssel şəhərində Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT) və Avropa İttifaqı Şurasının Şərqi Avropa və Mərkəzi Asiya üzrə İşçi Qrupu (COEST) arasında qeyri-rəsmi görüş keçirilmişdir. Sözügedən tədbirdə çıxış edənlər aşağıdakı vacib məqamları qeyd etmişdir:

**Rumıniya (QDİƏT-ə sədrlik edən ölkə qismində):**

- QDİƏT regionunda baş verən hadisələr sabitliyə hədə törətməkdədir. Bunun üçün Rumıniya sabitliyə töhfə verəcək layihələr üzərində işləməyin tərəfdarıdır. Bu xüsusda, nəqliyyat və enerji bağlantıları layihələri dəstəklənməlidir.

- QDİƏT çərçivəsində əməkdaşlıq beynəlxalq hüquq normaları üzərində qurulmalıdır. QDİƏT-in nizamnaməsinə hörmət başlıca prinsipdir.

**Rusiya (QDİƏT-in növbəti sədri kimi):**

- QDİƏT-in hüquqi sənədləri imkan verir ki, onun fəaliyyətini digər beynəlxalq təşkilatlar da dəstəkləsin. Lakin beynəlxalq təşkilatlarla istənilən formada əməkdaşlıq bütün QDİƏT üzv ölkələrinin maraqlarına cavab verməlidir.

- Avropa Komissiyasının Baş Direktorluqlarının QDİƏT-in işçi qruplarının iclaslarında iştirakı faydalıdır. Həmçinin, Aİ – COEST dialoqu davam etdirilməlidir.

**QDİƏT Baş Katibinin birinci müavini Tahsin Burcuoğlu:**

- QDİƏT-in yaranmasının 25-ci ildönümünədək təşkilatın iqtisadi əməkdaşlıq gündəliyi çoxsaylı layihələrlə zənginləşdirilməlidir. QDİƏT bu məqsədlə Aİ ilə dialoqu genişləndirmək istəyir. Bunun üçün QDİƏT baş katibi Aİ-nin genişlənmə danışıqları və Avropa Qonşuluq Siyasəti (AQS) üzrə komissar Yohannes Han və regional siyasət üzrə komissar Korina Kreçuya rəsmi şəkildə müraciət etmişdir.

- QDİƏT-in yüksək səviyyəli görüşlərinə yüksək vəzifəli Aİ rəsmiləri, o cümlədən komissar Yohannes Hanın dəvət edilməsi təşəbbüsü gündəmdədir. Bundan əlavə, QDİƏT-in ayrı-ayrı işçi qruplarının iclaslarında Avropa Komissiyasının müvafiq Baş Direktorluqlarının nümayəndələrinin iştirakı təklif olunur.

**Avropa Xarici Fəaliyyət Xidmətində Şərq Tərəfdaşlığı, regional əməkdaşlıq və ATƏT bölməsinin direktoru Boris Yaroşeviç:**

- Avropa Qonşuluq Siyasətinin yeni strategiyasında sub-regional əməkdaşlığın təşviqi xüsusi yer tutur. Bu, Aİ tərəfindən QDİƏT çərçivəsində həyata keçiriləcək regional layihələrin dəstəklənməsinə şərait yaradır. Aİ-nin trans-sərhəd və ərazi əməkdaşlığı proqramları sayəsində QDİƏT üzv ölkələri arasında konkret layihələr həyata keçirilir.

- Aİ Qara dəniz Sinerjisi proqramı ilə QDİƏT regionunda bir sıra təşıbbüsləri dəstəkləyir. Sözügedən proqramın əhatə dairəsi heç də məhdud deyil və bu da Aİ-yə imkan verir ki, QDİƏT-də vətəndaş cəmiyyəti və insanlar arasında əlaqə ölçüsünü inkişaf etdirsin. Növbəti il Aİ tərəfindən bu proqram çərçivəsində həyata keçiriləcək layihələrə 46 milyon avro vəsait ayrılacaqdır.

**Avropa Komissiyasının rəsmiləri:**

- Aİ QDİƏT-in növbəti sədr ölkəsi qismində Rusiyanın təşəbbüslərini nəzərdən keçirməyə hazırdır. Bununla belə, Aİ öz mümkün dəstəyini siyasi səpkidə olmayan layihələr ilə şərtləndirəcəkdir.

- Aİ QDİƏT-də biznesə başlama, kiçik və orta müəssisələrin inkişafı, ətraf mühit və iqlim dəyişikliyi ilə bağlı layihələri dəstəkləməkdə maraqlıdır.

- Aİ QDİƏT-lə birgə Vahid Bilik və İnnovasiya Məkanı (Common Knowledge and Innovation Space) yarada bilər. Belə ki, Ermənistan və Gürcüstan 2016-cı ildən etibarən Aİ-nin "Horizon 2020" proqramında iştirak edə biləcəklər. Aİ regional səviyyədə araşdırmalar üzrə prioritetlərini konkretləşdirmək məqsədilə "Black Sea Horizon" proqramını təşkil etmişdir. Proqramın büdcəsi 1,5 milyon avro təşkil edir. Su məsələləri əsas araşdırma istiqaməti müəyyən edilmişdir.

- Aİ enerji sahəsində QDİƏT ölkələri ilə ikitərəfli əməkdaşlıq edir. Əsas diqqət infrastruktur bağlantıların yaradılmasına yönəldilmişdir. Bu xüsusda, Aİ Cənub Qaz Dəhlizinin həyata keçirilməsini dəstəkləyir. Aİ Azərbaycanın təşəbbüsü ilə yaradılmış Məsləhət Şurasının fəaliyyətinə xüsusi əhəmiyyət verir. Aİ Məsləhət Şurasının növbəti iclasının tarixləri üzərində işləyir. Aİ Cənub Qaz Dəhlizinin genişləndirilməsi marağındadır və bu istiqamətdə digər potensial təchizatçılarla iş aparır. Aİ-nin Enerji İttifaqı üzrə komissarı Maroş Şefçoviç Türkmənistanın Cənub Qaz Dəhlizi layihəsinə cəlb edilməsinə səy göstərir.

- Aİ 2016-cı ildə QDİƏT regionunda enerji əməkdaşlığı çərçivəsini yeniləyəcəkdir. Bu, xüsusda İNOGATE proqramının təkmilləşdirilməsi və Beynəlxalq Enerji Agentliyinin və Enerji Birliyi təşkilatlarının tövsiyəsi ilə yeni regional tərəfdaşları cəlb edəcək çərçivənin yaradılması istiqamətində iş aparılır.

- Aİ QDİƏT ölkələri arasında elektrik enerjisi nəqli layihələrini dəstəkləməkdə maraqlıdır. Bu xüsusda, Türkiyə-Gürcüstan və Gürcüstan – Ermənistan elektrik enerjisi nəqli layihələrinə xüsusi diqqət ayırır.

**Ukrayna:**

Son dövrlər QDİƏT ölkələrinin Aİ ilə münasibətlərinin inkişafında dinamikliyi nəzərə almaq lazımdır. Bu gün bəzi QDİƏT üzv ölkələri artıq Aİ ilə daha yaxın münasibətlər yaratmışdır və onlar artıq Avropanın bir parçasıdır. Ona görə də, Aİ-nin QDİƏT çərçivəsində həyata keçirə biləcəyi layihələri dəstəkləməkdə tərəddüd olmamalıdır.

Azərbaycan nümayəndəsi iclasda söz götürərək bildirmişdir ki, Cənub Qaz Dəhlizi layihəsi QDİƏT regionunda ən real, irimiqyaslı və nəzəraçarpan təşəbbüsdür və bu layihə Aİ və qeyri-Aİ üzv ölkələrini, Aİ-yə namizəd ölkələri və Aİ ilə Assosiativ üzv ölkələri birləşdirir. Azərbaycan layihənin təşəbbüskarı və hazırkı dövrdə yeganə təchizatçı ölkədir. Bu baxımdan, hazırkı dövrdə bütün səylər Cənub Qaz Dəhlizinin həyata keçirilməsi istiqamətində iştirakçı ölkələr və tərəflərin öhdəliklərinin yerinə yetirilməsinə yönəldilməlidir. Tərəfimizdən bu mövqeyin səsləndirilməsində əsas məqsəd Cənub Qaz Dəhlizi ilə bağlı Aİ rəsmilərinin ictimai dairələrdə Rusiyanı qıcıqlandıra biləcək fikirlər söyləməkdən çəkindirmək olmuşdur.

Görüş zamanı Aİ nümayəndələrinin çıxışlarında diqqət çəkən məqamlardan biri də Türkiyə - Gürcüstan və Gürcüstan – Ermənistan elektrik enerjisi nəqli layihələrinə Aİ tərəfindən maliyyə dəstəyinin göstərilməsi imkanları ilə bağlı olmuşdur. İstisna etmək olmaz ki, bu layihələrin paralel şəkildə inkişaf etdirilməsi Türkiyədən elektrik enerjisinin Gürcüstan tərəfindən sonradan Ermənistana nəqli perspektivlərini artıra bilər. Bu nöqteyi-nəzərdən məsələnin QDİƏT çərçivəsində müvafiq işçi qrupunun fəaliyyətində diqqət mərkəzində saxlanılmasını məqsədəuyğun hesab edirik. Tərəfimizdən bu layihələrə Aİ tərəfindən ayrılacaq mümkün maliyyələşmə mənbələri, maliyyələşmə şərtləri və təyinatı kimi məsələlər əlavə olaraq araşdırılacaqdır.

Nəzərdən keçirilməsi üçün diqqətinizə təqdim olunur.